

**Tələbəyəm. Ömrümün ən qiymətli anlarını yaşayıram. Dərslərimi yaxşı oxumaq, seminarlara ciddi hazırlaşmaq, ictimai işlərdə fəal olmaqla kifayətlənmir, həm də imkan düşəndə Respublikamızın dilbər guşələrini gəzməyə, yurdumuzun əsrarəngiz gözəlliklərinin seyrinə dalmağa çalışıram.**

# Torpağa bağlılıq hər birimizin həyat meyarı olmalıdır

**Artıq ailəmizlə birlikdə əsrarəngiz təbiətə malik Lerik, İsmayıllı, Şamaxı və digər bölgələrdə olmuşuq. Zümrüd donlu meşələri, başı ağ çalmalı dağları, diş göynədən saf sulu bulaqları gəzdikcə qəlbim iftixar hissilə doldu. Son illər turizmin inkişaf etdirilməsi məqsədilə nə qədər işlər görülmüşdür!**

Tanrı zəngin iqlimli torpağımızdan heç bir nemətini əsirgəməyib. Elə bu səbəbdəndir ki, zaman-zaman mənfur düşmənlərimiz bəd niyyətlə əllərimizə göz dikib, havadarlarının köməyi ilə bu barlı-bərəkətli torpaqları mənimsəməyə can atıblar. Hazırda ərazimizin 20 faizi işğal altındadır. Ancaq düşünürəm ki, bütün bunlar müvəqqəti haldır. Ölkə prezidentinin uzaqgörən siyasəti, ordumuzun qüdrəti sayəsində həsrətlə övladlarının yolunu gözləyən Şuşa da, Kəlbəcər də, Laçın da, Ağdam da, Füzuli də, Zəngilan da, Cəbrayıl da, Qubadlı da- bütövlükdə bütün torpaqlarımız nankor qonşularımızın quzğun caynaqlarından xilas olacaqdır.

"Dədə Qorqud" filmində belə bir epizod var. Dədə Qorqud üzünü bir yeniyetməyə tutaraq deyir: " Torpağı əkib-becərmək üçün onu həmişə düşmənin həmlələrindən qorumalısan. Əkib-becərməyəndən sonra onu qorumağa dəyməz!"

Bəli, torpaqlarımızın hər qarışını göz bəbəyi kimi qorumalı, onun dəyərini bilməliyik. Bu işdə ata-babalarımızın həyatı, keçdikləri tarixi yol hər birimizə bir örnək olmalıdır. Buna bir nümunə kimi Lerik rayonunun Buzeyir kəndində anadan olmuş Balamirzə babanı göstərmək istərdim.

Şərəfli və ləyaqətli ömür yolu keçmiş Balamirzə baba 1941-ci ildə alman faşizminə qarşı müharibədə iştirak etmiş, düşmənə qarşı mərdliklə vuruşmuş və şücaət göstərmişdir.Vətənə olan borcunu yerinə yetirərkən düşmən gülləsinə tuş gələrək bir ayağını itirmişdir. Lakin, xalqına fədakarlıqla xidmət etmiş, qanını, hətta canını da əsirgəmədən xalqımızın müdafiəsində öz borcunu rəşadətlə, bütün çətinliklərə dözərək yerinə yetirmiş, vətənpərvərlik əzmindən dönməmişdir.

Orduda göstərdiyi fədakarlığa görə orden və medallarla təltif olunmuşdur. Müharibədə fədakarlıqla vuruşub ayağını itirməsinə baxmayaraq onun həyatı yalnız və yalnız zəhmətlə bağlı olmuşdur. Bəzən əlimiz-ayağımız yerində ikən nədənsə gileylənirik, zəhmətə alışmaq istəmirik. Amma mənim babamın buna baxmayaraq həyata olan istəyi,sevgisi daha da artmış, məhz vətən sevgisi, yurd sevgisi və zəhmət daim onun həyatını mənəvi cəhətdən zənginləşdirmişdir. O, vətənə olan xidməti borcunu yerinə yetirdikdən sonra pedaqoji təhsil almış və pedaqoji fəaliyyətə başlamışdır.

Beləliklə, 56 il Buzeyir kəndində müəllim işləmişdir. Babam müəllim fəaliyyəti ilə yanaşı, müharibədə fiziki sağlamlığını itirməsinə baxmayaraq həyatını sahədə təsərrüfatla məşğul olurdu. Yadımdadır, mən kiçik uşaq olanda kəndə gedərdim. Babam məktəbdən qayıdan kimi əynini dəyişər, təsərrüfat işləri ilə məşğul olardı.

Böyük həyətyanı sahələrində bağbanlıq, əkinçiliklə məşğul olardı. Geniş təsərrüfatı vardı. Hər dəfə həyətyanı sahənin çəpərlərini təzələyərdi. Mən sual verərdim , babam çəpərlər yaxşıdır, bunları niyə təzələyirsən, o isə cavabında deyərdi, çəpərini qorumaq qonşularla münasibəti qorumaq deməkdir. Babam deyərdi ki, vaxt insanın həyatında əvəzi olmayan bir dəyərdir.Vaxtın dəyərini bilməyən həmişə zərərdədir. O bizə nəsihət edərdi ki, vaxtınızın qədrini bilin və dəyərli vaxtınızı lazımsız, mənasız yerə kiminsə dalınca danışmağa, söz-söhbət yaratmağa deyil, məhz xeyirli işlər görməyə xərcləyin. Babam hər zaman boş vaxtlarında ağac əkər,onlara qulluq edərdi.

Bəli, Azərbaycan gənclərinin savadlanmasında və gənclərimizdə vətənpərvərlik hisslərinin və fikrinin formalaşmasında babamın mühüm rolu olmuşdur. Azərbaycanın görkəmli rəssamlarından biri olan Maral Rəhmanzadə özü Lerik rayonunun Buzeyir kəndində olmuş, babamın müharibə illərində gördüyü çətinlikləri dinləmiş, vətənpərvərlik ruhunda illüstrasiyalar yaratmışdır.

Balamirzə baba ulu öndərimiz Heydər Əliyevi o qədər çox istəyirdi ki, onun televiziyada olan heç bir nitqini, çıxışını qaçırtmırdı. Onunla eyni yaşda idi. Onun hünərinə,igidliyinə,mübarizliyinə çox fəxarətlə yanaşırdı. Hər zaman babamın yanında olanda o, bütün söhbətlərində Heydər Əliyevin adını çəkər, onun vətənimizə olan yüksək qayğısından danışardı. O, hər zaman Heydər Əliyevin çıxışlarından birini bizə xatırladardı,"Dünyada yaşayan azərbaycanlılar öz ana dilini, dinini, milli ənənələrini heç zaman unutmamalıdır.

Hər bir azərbaycanlı fəxr etməlidir ki, onun böyük tarixə, qədim zəngin mədəniyyətə malik olan Azərbaycan kimi vətəni vardır".

Onun maraqlı, insana vətənpərvərlik ruhu aşılayan söhbətlərinin əvvəli də, sonu da ulu öndərimizin sitatlarıyla bitərdi. Babamı dinləyərkən onun şərəfli həyat yolunun maraqlı söhbətlərindən heç doymurdum. Əksinə onun yanından bircə an da olsa ayrılmaq istəmirdim.Yadımdadır,hələ uşaq idim babam mənə suallar verdi və onun bütün suallarını cavablandırdım, üstündən illər ötdü və qardaşım artıq 6-cı sinifdə oxuyurdu. Babam dedi ki, Aybəniz balam, səni uşaq ikən sual-cavab etmişəm və sənin gələcəyin parlaqdır, qoy Elvini də yoxlayım, görüm onun dərsə həvəsi necədir? Elvin onun bütün suallarına cavab verdi. O bizim ikimizə də xeyir-dua verdi və gələcəyimizin parlaq olması üçün potensialımız güclüdür, - deyə söylədi.

Mənim şeir yazmaq qabiliyyətimi, ədəbiyyata marağımı görüb həmişə ənənəsinə sadiq qalaraq ümummilli liderimizin sözlərini deyərdi: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, güclü təsir edən, yeni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur".

Babamın müharibə illərindən, Şah İsmayıl Xətaidən və dünya azərbaycanlılarının ümummilli lideri Heydər Əliyev kimi görkəmli şəxslərin fəaliyyəti barədə söhbətlərinin məndə və qardaşımda vətənpərvərlik hisslərinin formalaşması və inkişafında mühüm rolu olmuşdur: "Hansı sahədə olursa insan öz vətəninə xeyir verməli və kiminsə arxasınca mənasız sözlər danışıb qızıldan qiymətli vaxtını boş yerə deyil, məhz vətəninə, elinə həsr etməlidir".

Mənəvi dəyərlərlə zəngin həyat yolu hər kəsə nəsib olmur.Mənim babam mənəvi dəyərləri ilə bizi zənginləşdirən, həyatda addımlamağımızda cığırlar göstərən şərəfli və ləyaqətli bir insan olmuşdur. Bu günsə onun adına bulaq inşa etdirən və insanlarda da niyyətində bulaq suyu tək saf və təmiz olmaq arzusu yaşadan Kəlbiyev Nemət Balamirzə oğludur.

O, mənəvi gözəllikləri həyatda daim üstün tutan bir şəxsdir. "Baba-Buzeyir" bulağının ərsəyə gəlməsi və yurdumuzun təbii zənginliklərinin mənəvi zənginliklə birləşməsi məhz onun sayəsində olmuşdur. İndi rayonun, kəndin insanları bu saf suyu içib doğma uzunömürlülər diyarında ömürlərini daha da uzadırlar. Əbəs yerə deyil ki, Leriki uzunömürlülər diyarı adlandırırlar.

Heç yadımdan çıxmır, babam həmişə bizə gələndə mən ona şeirlər söyləyərdim və o məni elə diqqətlə dinləyərdi ki, mənim uşaq qəlbimin böyük arzularını anlayardı. Bəxtiyar Vahabzadə "Tilsimli alma" şeirində dediyi kimi özüm kiçik olmağıma baxmayaraq xəyallarım böyük idi. Babam hər zaman mənə deyərdi ki, xəyallarının gerçəkləşməsini və böyük nailiyyətlər əldə etməyini istəyirsənsə, yüksək biliyə yiyələnməli və zəhmət çəkməlisən.

**Mən də bir gənc olaraq istərdim ki, vətənimçün nə isə edə bilim. Bu məqsədlə bütün gənclərə səslənirəm ki, Uca Yaradanın bizə bəxş etdiyi ağıldan, elmdən bəhrələnib mənəvi dəyərlərimizi üstün tutsaq və zəhmət çəksək bəhrəsini mütləq görəcəyik...**

**Aybəniz KƏLBİYEVA,**
***BDU-nun filologiya fakültəsinin tələbəsi***